Ramiz MƏMMƏDZADƏ

# UNUDULMAZ QƏDİR RÜSTƏMOV



Respublikamızın Xalq artisti, məşhur müğənnimiz, Qarabağımızın bənzərsiz möcüzəsi Qədir Rüstəmovla Ağdam şəhər 1 nömrəli oğlan orta məktəbini eyni vaxtda - 1954-55-ci dərs ilində bir yerdə bitirmişik. Və həmin ildə "oğlan" və "qız" məktəblərini birləşdirdilər.

İstəkli Qədir Rüstəmovla həmişə ünsiyyətdə olmuşuq, səmimi münasibətlərimizi qoruyub saxlamışıq. Bir məsələni də qeyd etməliyəm ki, Qədirə "Xalq artisti" adının verilməsində təşəbbüs göstərən şəxslərin sırasında mənim də az-çox cəhdim olub.

Qədirlə bağlı bir sıra yazılar yazmışam.

İndi oxuyacağınız bu kiçik həcmli şeiri qəribə də olsa, iki ilə yaza bilmişəm

## *QƏDİRDƏN SONRA*

Səsin leysanına düşüb
Sel kimi axmaq - çətin.
Əlini havanın
qulağına qoyub
Oxumaq - çətin
Qədirdən sonra.
Hanı "Sona bülbüllər"in
qədrini
Qədir qədər bilən...
Qədirbiləndir Qədir
qədirbilən!
Qəlbi qəribə qərib
Kədərə qərq olub Qədirin.
Dərdi dərələrdən
dərin
Dərd olub Qədirin.
Qərvənddən
Papravəndə
Gedənlərin qənşərində
Bir Qədr gecəsi
Gedər Qədir,
gedər!
Bilsəydik Qarabağın
Qədrini
Qədir qədər!
...Neçə il qabaq
Qədirin qarasınca
uçub getdi
Qarabağın bülbülləri.
Güman var ki,
dönə geri
Qədirin arxasınca
qarabaqara
Qarabağa...
İnşallah!

Şüvəlan
2002-2003-cü illər

Ədalət.2019.12 dekabr.S.5.